**Pensiyaçıların sosial müdafiəsi diqqət mərkəzindədir**

Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidmətindən «Vergilər» qəzetinə verilən məlumatda bildirilir ki, bu gün ölkə üzrə əmək pensiyalarının orta aylıq məbləğinin əmək haqlarının orta aylıq məbləğinə nisbəti 40%, yaşa görə əmək pensiyalarının orta aylıq məbləğinin əmək haqlarının orta aylıq məbləğinə nisbəti isə 45% təşkil edir. Oktyabrın 1-dək əmək pensiyalarının orta aylıq məbləği 151,3 manata, o cümlədən yaşa görə əmək pensiyasının orta aylıq məbləği 167,7 manata çatmışdı: «Ölkəmizdə yeni sığorta-pensiya sisteminin fəaliyyət göstərdiyi 2006-cı ildən indiyədək ölkə rəhbəri tərəfindən yaşa görə əmək pensiyasının baza hissəsinin artırılması ilə bağlı 7, sığorta hissəsinin artırılması ilə bağlı 6 sərəncam verilmiş, bununla yanaşı, əvvəlki sistemlə əhatə olunmuş şəxslərin yeni şəraitə inteqrasiyasının tamamlanması üçün ardıcıl qərarlar qəbul edilmişdir. Qısa müddət ərzində ciddi sosial-iqtisadi islahatların aparılmasının məntiqi nəticəsi kimi yaşa görə əmək pensiyasının baza hissəsinin 2006-cı il aprelin 1-dən 30 manat, oktyabrın 1-dən 35 manat, 2007-ci il yanvarın 1-dən 40 manat, fevralın 1-dən 50 manat, 2008-ci il yanvarın 1-dən 60 manat, sentyabrın 1-dən 75 manat, 2010-cu il sentyabrın 1-dən 85 manat məbləğində müəyyən edilməsi ilə bütün əmək pensiyaçılarının pensiyalarına eyni vaxtda artımlar tətbiq olunmuşdur».

Mətbuat xidmətindən bildirilir ki, ölkə rəhbərinin əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi barədə sərəncamlarına əsasən, müvafiq şəxslərin əmək pensiyalarının sığorta hissəsinə ölkədə baş vermiş inflyasiyaya uyğun olaraq 2007-ci il yanvarın 1-dən 8,3%-lik, 2008-ci il yanvarın 1-dən 16,7%-lik, 2009-cu il yanvarın 1-dən 20,8%-lik, 2010-cu il yanvarın 1-dən 1,5%-lik, 2011-ci il yanvarın 1-dən 5,7%-lik, 2012-cu il yanvarın 1-dən 7,9%-lik artım tətbiq edilmişdir.

Pensiyaçıların sosial müdafiəsinin xüsusi diqqət mərkəzində saxlanılmasını vurğulayan DSMF nümayəndəsi bildirib ki, bu diqqətin nəticəsində pensiyaların orta aylıq məbləği hər il yüksələn dinamika ilə artmışdır. Ölkə üzrə pensiyaların orta aylıq məbləği 1 yanvar 2006-cı il tarixə 28,5 manat olduğu halda, 1 yanvar 2007-ci il tarixə 41,1 manat, 1 yanvar 2008-ci il tarixə 62,9 manat, 1 yanvar 2009-cu il tarixə 95,8 manat, 1 yanvar 2010-cu il tarixə 100,4 manat, 1 yanvar 2011-ci il tarixə 112,9 manat, 1 yanvar 2012-ci il tarixə 145,1 manat təşkil etmiş, hazırda isə 151,3 manata çatmışdır. Nəticədə, yeni sistem fəaliyyətə başladığı dövrdən indiyədək əmək pensiyalarının minimum məbləği 3,4 dəfə, orta aylıq məbləği isə 5,2 dəfə artmışdır.

DSMF nümayəndəsi ötən il həyata keçirilmiş islahat tədbirlərinə də toxunaraq bildirib ki, tədbirlər çərçivəsində pensiyaların iş stajları əsasında yenidən hesablanması ilə 900 minə yaxın vətəndaşın pensiyası iyulun 1-dən orta hesabla 40% artırılmışdır. İslahat nəticəsində bu tarixədək 85 manat pensiya almış 482 min nəfərin pensiyası orta hesabla 44 manat və ya 52% artmışdır. 8550 nəfərin pensiyası 100%-dən çox, 61147 nəfərinki 80%-dən 100%-ə qədər, 262145 nəfərinki isə 50%-dən 80%-ə qədər artmışdır. Bundan başqa, müvafiq şəxslərin pensiyalarına elmlər doktoru elmi dərəcəsinə görə 200 manat, fəlsəfə doktoru elmi dərəcəsinə görə 120 manat məbləğində əlavələr hesablanmışdır...

AYTƏN